# QARAYUSİFLİ ƏZİZ YAŞAR OĞLU-SƏLƏFLƏRDƏN XƏLƏFLƏRƏ GEDƏN YOL

*Marif SƏLİMOV*

Qarayusifli Əziz Yaşar oğlu 02.11.1968-ci ildə Bakı şəhərində musiqiçi ailəsində anadan olub.Atası Qarayusifli Yaşar Qurban oğlu (1938-2015) görkəmli truba ifaçısı, Bakı Musiqi Akademiyasının dosenti, anası Qarayusifli Ulduzə Hüseyn qızı (1945) pianino fortepiano ixtisası üzrə pedaqoq kimi uzun illər fəaliyyət göstərmişdir. Musiqiçi ailəsində dünyaya göz açması, körpəlikdən ana laylası kimi musiqi səsi eşitməsi, onda musiqiyə böyük maraq doğurmuş və gələcəkdə bir musiqiçi kimi formalaşmasında əsas rol oynamışdır. Bunun nəticəsi olaraq musiqiçi olmaq qərarını verən balaca Əziz 1976-cı ildə Bülbül adına 11 illik uşaq musiqi məktəbinə professor Elxan Babayevin klarnet sinifinə qəbul olub. 1985-ci ildə Respublika müsabiqəsində 3-cü yerə layiq görülüb. Bülbül adına 11 illik uşaq musiqi məktəbindəki təhsili ilə yanaşı, Hərbi Dəniz Qüvvələrinin hərbi orkestrində 1985-ci ildən 1987-ci ilədək musiqiçi şagird kimi xidmət edib. 1987-ci ildən 1989-cu ilədək Hərbi Dəniz Qüvvələrinin hərbi orkestrində müddətli həqiqi hərbi xidmət keçib. 1989-cu ildə indiki Bakı Musiqi Akademiyasına, professor Elxan Babayevin klarnet sinifinə daxil olub. 1989-cu ildə Əzizə Mustafazadə ilə birlikdə "Konsertino Praqa" müsabiqəsinin seçim turunda iştirak edib və 1-ci yeri tutublar. yerə layiq görülüblər. Praqa şəhərində



keçiriləcək konsertdə ifa olunmaq üçün nəzərdə tutulan proqram, K.M.Veber klarnet və f-no üçün "Tema-Variasiyalar" və bu musabiqə üçün xüsusi yazılmış, Svatopluk Qavelkanın klarnet və f-no üçün Sonatası Gürcüstan Respublikasının paytaxtı Tiflis şəhərində lentə yazılıb və radioda səslənib.

Praqa şəhərində keçiriləcək konsertə görə qrant pul vəsaiti ayrılsada Sovet hakimiyyəti rəhbərliyi konsertə getməyə icazə verməyib. "Konsertino Praqa" müsabiqəsindən sonra Azər Rzayev gənc istedadları öz evinə dəvət edib və onlardan dövlət televiziyasında aparıcısı olduğu veriliş üçün musahibə alıb. Bakı Musiqi Akademiyasında təhsil aldığı ilk illərdə professor Elxan Babayevin və özünün şəxsi təşəbbüsü ilə yenilik etmək məqsədi ilə ənənəvi ifa olunan imtahan proqramına xas olmayan neoklasizmin yaradıcısı olan alman bəstəkarı Hindemitin əsərini semestr imtahanında ifa edib, lakin imtahan komissiyası heyyəti (Rəsul Rəsulov, Əbdül Məhəmmədov və Ələkbər İsgəndərov) tərəfindən tənqidlərə və qınağa səbəb olub. 1990-cı ildə Azərbaycan Dövlət Opera və Balet teatrına dəvət alıb. 1993-cü ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrində musiqiçi kimi xidmət edib.1995-ci ildə Fikrət Əmirov adına keçirilən 3 turlu Respublika müsabiqəsində 1-ci yeri tutub. 1-ci turda K.M.Veber "Konsertino", Klod Debüsi "Rapsodiya", Fikrət Əmirov "Rəqs", 2-ci turda K.M.Veber "Konsert", Pülenk "3 hissəli Sonata", Azər Rzayev "Skertso"(bu müsabiqə üçün yazılıb və ilk ifaçılardan biri olub), 3-cü turda isə V.A.Mosart "3 hissəli konsert" əsərlərini ifa edib.

1998-ci ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Simfonik orkestrinə konsert-meyster vəzifəsinə dəvət alıb. Bütün milli və xarici dirijorların iştirakı ilə keçirilən konsertlərdə ifa olunan əsərlərdə 1-ci klarnet partiyasını və soloları ifa edib.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və onun xanımı Mehriban Əliyevanın xarici səfərləri zamanı keçirilən konsert tədbirlərində orkestrin tərkibində iştirak edib. 2008-2009-cu illərdə keçirilən Bülbül adına vokal ifaçılarının birinci konkursunda müsabiqəsində simfonik orkestrin tərkibində klarnet sololarını ifa edib.Opera festivalları zamanı Almaniyanın Kann, Münhen, Berlin, Fransanın Paris, Yunanıstanın Afina şəhərlərində konsert heyəti ilə səfərlərdə olub və ən çətin klarnet soloların ifa edib. Puççininin "Toska " operasında Kavaradossinin ariyası səhnəsində çətin sololardan sayılan klarnet solosunun ifası zamanı birinci oktavanın si notunun xaric səslənməməsi üçün özünə məxsus applikaturadan istifadə edib.







Bundan başqa L.V.Betxovenin 9-cu , D.Şostakoviçin 9-cu simfoniyasının 2-ci və 3-cü hissələrində olan çətin və məşhur olan klarnet sololarını ifa edib. R. Korsakovun "Şəhrizad" P.İ.Çaykovskinin " Frančesko da Rimini" bəstəkarın bütün baletlərində 1-ci klarnet partiyasını ifa edib. 2010-cu ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində Teymur Göyçayevin rəhbərliyi ilə özü və tələbələri ilə birlikdə konsert proqramı ilə çıxış edib. 2015-ci ildə Azərbaycan Dövlət Neft Şirkəti Sokarın təşkilatçılığı ilə keçirilən xeyriyyə konsertində Gürcüstan Respublikasının Dövlət Simfonik orkestrinin tərkibində dəvətli musiqiçi kimi İtalyan dirijoru Marko Boeminin rəhbərliyi altında 3 saat baş tutan konsertdə 1-ci klarnet partiyasını və ən çətin soloları məharətlə ifa edib. Onu da, qeyd edək ki, konsert məşqləri üçün cəmi 1 məşq ayrılıb. Konsertdən sonra isə Marko Boemi Əziz müəllimi təbrik edib və öz təşəkkürünü bildirərək deyib: Cəmi bir məşqə bu cür mükəmməl və professional ifa tərzi necə ola bilər axı-? ( dəvətli musiqiçi o deməkdir ki, orkestrin heyətində ştatlı klarnet ifaçı olduğu halda başqa bir müsiqiçinin dəvətinə etiyac duyulur.) 2016-cı ildə XÇA-ri orkestri ilə Şəmsi Kərimovun klarnet konsertini klassik üslubda Xalq artisti Ağaverdi Paşayevin dirijorluğu ilə ifa edib və kadensiya hissəsinə klarnet alətinin texniki imkanlarına uyğun olaraq passaj və digər dəyişikliklər əlavə edərək əsərə yeni bir

nəfəs qatıb. Dirijor Əyyub Quliyevin rəhbərliyi ilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Simfonik orkestri ilə birlikdə bəstəkar Pyer Tiluanin Xocalı soyqrımına həsr etdiyi simfonik orkestr, skripka və klarnet üçün "Xocalı 613" əsərinin Bakı şəhərində ilk ifaçısı olub. Bundan başqa o gənc bəstəkarın klarnet əsərlərinin ilk ifaçısı olub. Əsərləri ifa etməzdən əvvəl məşq prosesləri zamanı yazılan əsərdə klarnet alətinə uyğun gəlməyən hissələrdə dəyişikliklər etmək məsləhətini verib, gənc bəstəkarlarla öz təcrübəsini bölüşərək köməyini əsirgəməyib. Bununla da onlara gələcəkdə yazıla bilən əsərlərdə daha da diqqətli və professional olmağa bir növ yol göstərib. Müşfiq Qəmbərli klarnet və f-no üçün 4 pyes "Təbiət qoynunda", "Döyüş" ,"Məhəbbət", "Skertso" , Fərid Fətullayev klarnet və f-no üçün " Ayın qarşısından keçən bulud karvanı", Rüfət Xəlilov klarnet və f-no üçün "Funeral songs for deceased Chairman", Orxan Həşimov "Sonata for clarinet and piano in two movements", Özkan Manav klarnet və f-no üçün "Taksim" əsərlərinin ilk ifaçısı olub. Bir neçə klarnet üçün köçürmələr kitablarının müəllifidir.

1995-ci ildə Bülbül adına 11 illik uşaq musiqi məktəbində müəllim kimi fəaliyyətə başlayıb. 1996-97-ci illərdə İnternational school tədris mərkəzində tələbələrə klarnet dərsləri keçib. 1999-cu ildə Bakı Musiqi Akademiyasına müəllim kimi dəvət alıb. Fəaliyyəti dövründə hər zaman yeniliklərə can atan Əziz müəllim, səfərdə olduğu bütün şəhərlərdən Azərbaycan klarnet məktəbinə yeni nəfəs gətirmək məqsədi ilə bizim məktəbə xas olmayan yeni klarnet məktəbləri kitablarını əldə edərək vətənə gətirmiş və onu tədrisdə istifadə etmişdir. Bununla da yeni nəsil klarnet ifaçılarını daha tez inkşaf edib uğurlar qazanmasına öz tövhəsini vermişdir. Belə ki, Brüssel şəhərində səfərdə olduğu zaman konservatoriyanın klarnet sinifində divardan asılmış yeni və texniki cəhətdən daha rahat klarnet applikaturasının şəkilini görmüş və fotoşəkilini əldə edərək vətənə gətirmiş. 1996-1997-ci illərdə İnternational school tədris mərkəzində dərs dediyi dövrlərdə Amerika və İngilis klarnet məktəblərinə aid olan 5 kitabı əldə edərək, bu məktəblərin milli kadrlar tərəfindən mənimsənilməsinə maksimum nail olmuşdur. Tədris proqramlarında

tələbələrinə klassik əsərlərlə yanaşı müxtəlif janrlardan olan əsərləri öyrədərək, bu əsərlərin imtahanlarda ifa olunmasına nail olmuş və rəğbətlə



qarşılanmışdır. Bakı Musiqi Akademiyasında dərs dediyi illərdə (1999-cu ildən hal-hazıradək) onun tələbəsi Abdullayev Teymur Azərbaycanda ilk dəfə olaraq alman bəstəkarı L.Şporun klarnet və f-no üçün yazdığı 3-cü konsertini dövlət buraxılış imtahanında ifa etmişdir. Bu, o dövrlər üçün yenilik idi. O, professor Elxan Babayevin klarnet üçün işləməsi olan, Ü.Hacıbəylinin " Koroğlu " operasından " Qızların rəqsi" parçasını yenidən özünə məxsus şəkildə işləyərək yenidən redaksiya etmişdir. Bundan başqa F.Əmirovun "1001 gecə" baletindən olan rəqsləri papuri şəkilində klarnet aləti üçün işləmiş və tədrisdə istifadə etmişdir. Dərs dediyi illərdə bir çox klarnet ifaçıları yetişdirib. Bunlardan Abdullayev Teymur, Məhəmmədov Ruslan, Şeydayev Elnur, Muradov Rauf, Ağayev Fərid, Bayramov Rafael, Rəcəbli Məmməd, Novruzbəyov Sətdam, Mehdizadə Sərvan, Səlimov Orxan, Əyyubov Mehdi və b. qeyd etmək olar. Tələbələrindən Ağayev Fərid və Bayramov Rafael Fikrət Əmirov adına keçirilən 3 turlu Respublika müsabiqəsində 2-ci yer tutub, yekunda Ağayev Fərid - V.Tuçekin klarnet və f-no " B-dur" konsertini, Bayramov Rafael isə F. Kramarjın klarnet və f-no üçün Es-dur konsertini ifa edib. Novruzbəyov Sətdam Avstryanın Vyana şəhərində keçirilən 3 turlu müsabiqədə 2-ci yeri tutub. 3-cü turda O, V.A.Mosartın klarnet və f-no üçün 3-cü konsertinin 1-ci hissəsini və Bramsın klarnet və f-no üçün 2-ci Sonatasını ifa edib. Fransanın Paris Konservatoriyasının magistr pilləsini bitirib. Eyyubov Mehdi Bolqarıstan və Türkiyə Respublikalarında keçirilən müsabiqələrin qalibidir. Hal-hazırda Türkiyə Respublikasının Adana Konservatoriyasında təhsil alır. Rəcəbli Məmməd Respublika müsabiqəsi laureatı, Prezident təqaüdçüsüdür. Hal-hazırda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Simfonik orkestrində işləyir.

Bütün bu uğurların nəticəsi olaraq, 2012-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin müvafiq əmrinə əsasən Azərbaycan Respublikasının əməkdar artisti adına layiq görülüb. 2016-cı ildən etibarən Qara Qarayev adına 8 nömrəli 11 illik uşaq musiqi məktəbinin direktoru vəzifəsinə təyin edilib. Belə bir

çətin və məsuliyyətli işin Əziz müəllimə həvalə olunmasına baxmayaraq, ifaçılıq və pedaqoji fəaliyyətini davam etdirir. Hal-Hazırda bəstəkar Tofiq Bakıxanovun "Tar və klarnet üçün ikili konsertinin" üzərində iş aparır. Əziz müəllimin həyat və yaradıcılıq portretinə nəzər salsaq görərik ki, doğrudanda daim axtarışda olmaq, yeniliklərə can atmaq və ən əsası öz üzərində çalışmaq bəhrəsini verir. Musiqiçi əgər haqlıdırsa, heç bir təziqlərə və qınaqlara baxmayaraq təcrübəsini artırmalı, qarşıya qoyduğu məqsədə çatmaq üçün daim gecə-gündüz öz üzərində işləməli və haqlı olduğunu subut etməlidir. Əks halda heç bir nəaliyyət və heç bir uğurdan danışmaq mümkün deyil. Musiqi tarixinin bütün dövrlərində olan məktəblərə və cərəyanlara nəzər salsaq açıq-aydın görərik ki, həm bəstəkarlıq həmdə ifaçılıq sahəsində novatorluq edib yeniliklərə can atan insanlar tənqidlə qarşılanıb, qınaq obyektinə çevrilərək müzakirə olunublar. Onların fikriylə razılaşanlarda olub, razılaşmayanlarda. Lakin zaman keçib, vaxt ötdükcə bu təcrübə və yeniliklər öz təsdiqini taparaq qəbul olunub, gələcəkdə musiqinin inkişafı üçün yeni perspektivlərin, yeni yollar açılmasında böyük rol oynamışdır.Bir sözlə desək "Qaliblər müzakirə olunmur". Əziz müəllimin həyat və ifaçılıq təcrübəsi gənc, eyni zamanda gələcək nəsillərə örnək olacaq bariz bir nümunədir.